


# "Bakı", axşamın xeyir!"

## "Bakı" qəzetinin nəşrə başlamasından 50 il keçdi

"Bakı" qəzeti nəşrə başladığı ilk gündən oxucuların sevimlisi olub. Bunu elə-belə, sadəcə sözgəlişi demirəm. Onun canlı şahidiyəm ki, ötən əsrin 70-ci illərində, hələ ucqar dağ kəndində orta məktəbdə oxuyarkən gördüm ki, bu qəzetin çoxsaylı oxucuları onun gəlişini necə intizarla gözləyirdilər. Mən də o oxuculardan biri idim. Qəzetdə dərc olunan materiallar, paytaxt xəbərləri, hadisələr, yeniliklər oxunaqlı idi və oradakı bədii yazılar çox xoşuma gəlirdi. Tanınmış yazıçıların hekayələri, povestləri, romanlarından parçalar "Bakı"da öz əksini tapırdı. Mən hələ şairlərimizin şeirlərini, poemalarını demirəm.

Deyə bilərəm ki, "Bakı" qəzeti bütün bakılıların doğma qəzeti idi. Sadə əmək adamlarından tutmuş tanınmış elm, incəsənət xadimlərinədək hamı "Bakı"da çap olunmağı özünə fəxr bilirdi. Qəzetin əməkdaşlarının—sıravi müxbirdən tutmuş redaktoradək—hamının imzası tanış idi.

Qəzeti sevdirən cəhət nə idi? Bir oxucu, eyni zamanda qəzetlə əməkdaşlıq edən jurnalist kimi ilk növbədə onu qeyd edim ki, qəzetdə sağlam kollektiv yaranmışdı, bu kollektivdə möhkəm əmək intizamı, peşəkarlıq, operativlik, təmizlik, obyektivlik hökm sürürdü. Bu cəhətləri təkcə redaksiya kollektivi deyil, bütün respublika bilirdi.

Sadə əmək adamlarından oçerk yazmaq üçün Qara şəhərdəki zavodlardan birinə getmişdim. Məni çox yüksək səviyyədə qarşıladılar. Direktor müavini zarafatla, bəlkə də ciddiliklə dedi ki, sizdən—yəni "Bakı" qəzetindən küsmüşəm. Səbəbini soruşdum, dedi ki, siz bizim qonşu zavoddan bu il iki dəfə yazmısınız, bizə isə bircə dəfə gəlirsiniz. Axı, bizim günahımız nədir.

Uzaq Sibirdə ezamiyyətdə olarkən orada yaşayan həmyerlilərimiz haqqında bəzi məlumatlar əldə etmişdim. Qayıdan kimi onları qəzetə təqdim etdim və ertəsi gün yazı gözəl tərtibatla "Bakı" və "Baku" qəzetlərində dərc olundu...

Bu ilin yanvar ayının 10-da "Bakı" qəzetinin 50 yaşı tamam oldu. Bu münasibətlə tanınmış jurnalist, 36 il fasiləsiz olaraq "Bakı" qəzetində əvvəlcə müxbir, şöbə müdiri, hazırda redaktor müavini işləyən "Qızıl qələm" mükafatı laureatı, "Tərəqqi" medalına layiq görülən Ənvər Məşədiyevin "Bakı", axşamın xeyir!" xatirə–povesti çapdan çıxıb.

Kitab görkəmli jurnalist, gözəl pedaqoq, Azərbaycan jurnalistlərinin böyük bir dəstəsinin ustadı və ağsaqqalı, "Bakı" və "Baku" qəzetlərinin yaradıcısı və 30 il redaktoru olmuş professor Nəsir Əsədulla oğlu İmanquliyevin insani xüsusiyyətlərinin, yaradıcılıq fəaliyyətinin bəzi məqamlarına işıq salmışdır.

Müəllif qeyd edir ki, 1958-ci il yanvarın 10-da axşam saat 17:00 radələrində mavi Xəzərin sahilində—Neftçilər prospektində yerləşən keçmiş "Birləşmiş" nəşriyyatın mətbəəsindən birbaşa paytaxtımızın qəzet köşklərinə gətirilən kiçik formatlı "Bakı" macəralı bir əsər, qiymətli hədiyyə kimi qarşılanmışdır. "Bakı" qəzetinin nəşrə başlaması mətbuat tariximizdə mühüm bir hadisə idi. Çox keçmədi ki, "Bakı" axşam qəzeti populyarlaşdı, respublikamızın maraqlı, aparıcı mətbu orqanlarından birinə çevrildi. O dövrün bir çox adlı-sanlı yazıçı və şairləri, incəsənət adamları, ziyalıları, söz sahibləri "Bakı" qəzetinin ətrafında birləşdilər. Kitabda həmin müəlliflərdən xalq şairləri Bəxtiyar Vahabzadənin, Nəbi Xəzrinin, Cabir Novruzun, xalq yazıçısı Hüseyn Abbaszadənin, xalq rəssamı Mikayıl Abdullayevin, xalq artisti, bəstəkar Tofiq Quliyevin və başqalarının ürək sözləri verilmiş, qəzetin rolu və mövqeyi dəyərincə qiymətləndirilmişdir.

Müəllif çalışmışdır ki, qəzetin cəmiyyətdə tutduğu aparıcı mövqeyini detalları ilə qələmə alsın və o buna demək olar ki, nail olmuşdur. Xatirə-povest "Bakı" qəzetinin fəaliyyətinin oxucu kütləsinə çatdırılması, qəzetin yarım əsrlik yubileyinə qiymətli töhfədir.

**Müzahim İSMAYILZADƏ,**
**"Respublika".**